## Yeddi ayın makroiqtisadi göstəriciləri

*Ötən yeddi ay ərzində məhsul istehsalı artmış, xidmətlərin çeşidi genişlənmiş, yeni iş yerləri azılmış, əhalinin rifahı yüksəlmişdir*

Cari ilin yeddi ayının makroiqtisadi göstəricilərinin ötən ilin yanvar-iyul aylarının nəticələri ilə müqayisəsi ölkənin həm iqtisadi, həm də sosial sahələrinin dinamik inkişaf etdiyindən xəbər verir. Yanvar-iyul aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə Ümumi Daxili Məhsul (ÜDM) istehsalı 1.6%, yaxud müqayisəli qiymətlərlə 476.5 milyon manat artaraq 30.8 milyard manata çatmışdır. ÜDM-in 67.4%-i məhsul istehsalı sahələrində, o cümlədən 52.3%-i sənayedə, 9.6 %-i inşaat kompleksində, 5.5%-i kənd təsərrüfatında yaradılmışdır. ÜDM-in 6.1 %-i məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Orta hesabla əhalinin hər nəfərinə düşən ÜDM istehsalı 3364.7 manat (4280.9 ABŞ dolları) təşkil edərək 0.2 % artmışdır. ÜDM-in tərkibində ən böyük paya malik olan sənaye sahələrində fiziki şəxslərin fəaliyyəti də nəzərə alınmaqla 20.3 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş və iyul ayında sənayedəki geriləmə bir qədər ixtisar edilərək ilin əvvəlindən ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.8% təşkil etmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 7.3% artmış, neft sektorunda isə 4.7% azalmışdır.

***Tikinti-quruculuq işləri genişlənir, yeni iş yerlərinin sayı artır***

İlin əvvəlindən inşaat kompleksində 7.1 milyard manat məbləğində investisiyadan istifadə edilmişdir. İstifadə edilmiş vəsaitin 59.6 % və ya 4.2 milyard manatı bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. 2011-ci ilin yanvar-iyul aylarına nisbətən inşaat işlərinə sərf olunmuş investisiyanın həcmi 27.2 %, bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin miqdarı isə 26.9 % artmışdır. Əsas kapitala yönəldilmiş vəsaitin 78.8%-ni və ya 5.6 milyard manatını daxili investisiyalar təşkil etmiş və 34.7% artmışdır.

Cari ildə inşasının davam etdirilməsi məqsədəuyğun sayılan obyektlərdə işlərin aparılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş 5933.9 milyon manat vəsaitin 3046.7 milyon manatından istifadə edilmişdir. 2009-2013-cu illəri əhatə edən regionların sosial-iqtisadi inkişafının ikinci Dövlət Proqramının icrası ilə əlaqədar 2012-ci il iyulun 1-nə ölkədə 299 min yeni, o cümlədən 219,9 min daimi iş yeri açılmış, onların 58,2 mini, o cümlədən 40,4 min daimi iş yerləri təkcə 2012-ci ilin birinci yarısında yaradılmışdır. Regionların inkişafına yönəldilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində yaradılmış iş yerlərinin 70.1%-i regionlarda, 87.8%-i qeyri-dövlət sektorunda açılmışdır.

***Deflyasiya meylləri müşahidə olunmaqdadır***

2012-ci ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin gəlirləri 13.9% artaraq 18.2 milyard manata, hər bir nəfərə düşən gəlirlər isə 12.3% artaraq 1992.8 manata (orta hesabla ayda 284.7 manata) çatmışdır. Gəlirlərin 63.2%-i son istehlaka, 8.8%-i vergilərin, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 26.2%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf edilmişdir. Muzdla işləyənlərin orta aylıq əmək haqqı yanvar-iyun aylarında 8.3% artaraq 384.5 manata çatmışdır. Sənaye, tikinti, nəqliyyat və s. sahələrdə işləyənlərin əmək haqqı daha yüksək olmuşdur. Belə ki, yanvar-iyun ayları ərzində sənayedə çalışanların orta aylıq əmək haqqı 591.6 manat, tikinti kompleksində 553.1 manat, nəqliyyatda 483.0 manat, rabitə sektorunda isə 615.8 manat təşkil etmişdir. Əhalinin gəlirlərinin artması onların ticarət şəbəkəsindən daha çox istehlak malları almasına və xidmətlərdən daha geniş istifadə etməsinə şərait yaradır. Məhz belə şəraitin yaranması nəticəsində ötən ilin yeddi ayına nisbətən pərakəndə əmtəə dövriyyəsi 9.3% artaraq 9.6 milyard manata, pullu xidmətlərin həcmi isə 7.5% çoxalaraq 3 milyard manata çatmışdır. Realizə olunmuş əmtəələrin 56.5%-ni ərzaq məhsulları, 43.5 %-ni isə qeyri-ərzaq malları təşkil etmiş və onların satışı müvafiq olaraq 1.1 % və 22.8 % artmışdır. Ötən yeddi ayda elektron ticarət dövriyyəsi vasitəsilə alıcılara 732.1 min manatlıq qeyri-ərzaq malları və 43.4 min manatlıq ərzaq məhsulları satılmışdır.

Son dörd ay ərzində ardıcıl olaraq qiymətlərin ucuzlaşması, yəni deflyasiya müşahidə olunmaqdadır. İyul ayında iyun ayı ilə müqayisədə istehlak mallarının qiymətləri və xidmət tarifləri 0.7%, o cümlədən ərzaq məhsullarının qiymətləri 1.4%z ucuzlaşmış, qeyri-ərzaq mallarının

qiymətləri və xidmət tarifləri iyun ayının səviyyəsində qalmışdır. Eyni zamanda qiymət və tariflər yeddi ay ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə 2%, o cümlədən ərzaq məhsullarının qiymətləri 2.3%, qeyri-ərzaq mallarının qiymətləri 1.3%, xidmət tarifləri 1.6% bahalaşmışdır.

***Qeyri-neft məhsullarının ixracı artır***

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2012-ci ilin yanvar-iyun aylarında aparılmış xarici ticarət dövriyyəsinin həcmi 17.2 milyard dollar təşkil etmiş, bunun 90.3 %-i və ya 15.5 milyard dolları uzaq xarici dövlətlərlə, 1.7 milyard dolları isə MDB üzvü ölkələri ilə aparılmışdır. Altı ay ərzində ölkəmizdən xarici ölkələrə 12.7 milyard dollar dəyərində müxtəlif məhsullar göndərilmişdir. Göndərilmiş məhsulların 12.2 milyard dolları uzaq xarici dövlətlərə, 537.6 milyon dolları MDB-yə daxil olan ölkələrə ixrac olunmuşdur. Qeyri-neft məhsullarının ixracı altı ay ərzində sabit qiymətlərlə 6.2% artmışdır.

Ölkəmizə idxal olunmuş məhsulların dəyəri 4.5 milyard dollar təşkil etmişdir. Uzaq xarici ölkələrdən gətirilmiş malların həcmi 3.4 milyard dollar, MDB üzvü dövlətlərindən isə 1.1 milyard dollar olmuşdur. Altı ay ərzində 8.2 milyard dollarlıq, o cümlədən uzaq xarici ölkələrlə 8.8 milyard dollar məbləğində müsbət, MDB üzvü dövlətləri ilə isə 582.2 milyon dollar məbləğində mənfi saldo yaranmışdır. Yanvar-iyun aylarında Azərbaycana 17.1 milyon dollar məbləğində humanitar və texniki yardım daxil olmuşdur.

***Dövlət büdcəsində profisit yaranmışdır***

Maliyyə Nazirliyinin məlumatlarına əsasən, yanvar-iyun aylarında dövlət büdcəsinə 8.1 milyard manat həcmində, yaxud 2011-ci ilin müvafiq dövründəkindən 45% çox vəsait daxil olmuş, bu vaxt ərzində büdcədən 7.1 milyard manat və ya 2011-ci ilin müvafiq dövrünə nisbətən 45.6% çox vəsait xərclənmiş, 1024.8 milyon manat məbləğində və ya ÜDM-nin 4% qədər profisit yaranmışdır.

Büdcə xərclərinin 41.7%-i və ya 2961.3 milyon manatı iqtisadiyyatın inkişafına, 13.5%-i, yaxud 956.4 milyon manatı sosial müdafiə və sosial təminata, 11.3 %-i və ya 805.6 milyon manatı təhsilə və səhiyyəyə yönəldilmişdir. Büdcə xərclərinin 23.9%-i və ya 1697.8 milyon manatı əmək haqqı, pensiya və müavinətlərin ödənilməsinə sərf edilmişdir.

Vergilər Nazirliyindən verilən məlumata görə, 2012-ci ilin yanvar-iyul aylarında nazirlik tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 3 milyard 815 milyon 559,6 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 42,5%-i mənfəət vergisinin, 21,9%-i əlavə dəyər vergisinin, 11,9%-i fiziki şəxslərin gəlir vergisinin, 7,1 %-i aksizlərin, 16,6%-i isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə isə dövlət büdcəsinə 1 milyard 942 milyon 563,4 min manat vergi daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 16% çoxdur.

***Büdcə xərcləri (mln. manat)***



*Vergi daxilolmaları*




Rəşad SADIQOV